# T ə b r i k



Hörmətli Gülşən Behbud!

Sizi - istedadlı şairi yubileyiniz münasibətilə təbrik edirik.

Siz Ağdam şəhərində anadan olmusunuz. 1993-cü ildə ali məktəbi bitirdikdən sonra bir müddət "Ədalət" qəzetində, Dövlət Sosial Müdafiə Fondunda çalışmısınız. 2012-2018-ci illərdə "Atilla" jurnalı sizin baş redaktorluğunuzla nəşr olunub.

Hazırda Milli Dəyərlər üzrə Maarifləndirmə İctimai Birliyinin sədri kimi fəaliyyət göstərirsiniz.

"Taleyim alnımda qara yazı", "Vətən ünvanlı", "Yaşayan şəhid", "O bir qəhrəman", "Könül pıçıltıları", "İcazə ver ölüm", "100 - ilin imzası" adlı kitablarınız işıq üzü görüb. Sözlərinizə mahnılar bəstələnib. Çoxsaylı ölkələrdə düzənlənən beynəlxalq konfranslarda iştirak edibsiniz.

Ölkəmizin ictimai həyatında səmərəli fəaliyyətinizə görə Respublika Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüsünüz.

Hörmətli Gülşən Behbud!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**